# SƏMƏD VURĞUN POEZİYASINDA TƏBİƏTLƏ İNSANIN HARMONİYASI

***Aynur Famil qızı Paşayeva***

*Azərbaycan Respublikasının Təhsil İnstitutunun şöbə müdiri,*

*filologiya üzrə fəlsəfə doktoru, dosent*

*aynur.pashayeva@arti.edu.az*

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, dramaturq, şifahi xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın körpüsü sayılan Səməd Vurğun xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlərdən biridir. O, əlli illik ömrünün otuz ilini ədəbi yaradıcılığa həsr etmiş, Azərbaycan klassik poeziyasında öz dəst-xətti ilə seçilmiş, dilinin sadəliyi, şirinliyi, axıcılığı ilə qəlbləri fəth etmiş, eyni zamanda, ədəbi prosesləri yaxından izləyərək təşkilatçı və nəzəriyyəçi kimi də ön sıralarda yer almışdır.

O, dillər əzbəri olan poeziya nümunələri ilə doğma ana dilinin - Azərbaycan dilinin nə qədər gözəl, zəngin, axıcı, rəvan olduğunu göstərməklə yanaşı, bundan ilhamlanaraq Azərbaycan ədəbiyyatını, mədəniyyətini zirvələrə ucaldan əsərlər yaratmışdır. Hələ ilk qələmə aldığı şeirlərindən bəlli olurdu ki, gənc şairin həyat fəlsəfəsi, dünyagörüşü, baxış bucağı müasirlərindən fərqli idi. İfadə tərzi, hisslərin səmimiliyi, təbiiliyi, fikir və mülahizələrini oxucuya sadə, anlaşıqlı dildə çatdırması onun ayna kimi qəlbinin təmizliyindən, varlığı, yaranışı, xalqın ruhunu şairanə duyumundan irəli gəlirdi. Xalq yazıçısı Mir Cəlal Paşayev bu məqamı belə vurğulayırdı: "*Səməd Vurğun bir çoxları kimi əlinə qələm aldığı gündən əsil şair kimi kağız korlamamışdır*" (7, s.79). Səməd Vurğun yaradıcılığını geniş tədqiq edən Bəxtiyar Vahabzadə isə qeyd edirdi ki, onun ürəklərə yol açan poeziyası, eləcə də məzmunlu dram əsərləri xalqın ruhundan, qəlbindən xəbər verdiyinə görə bu gün də öz təbiətini saxlamaqdadır (3, s.94).

Şairin doğma vətəninə olan sevgisindən qaynaqlanan "Azərbaycan" şeirində (1935-ci ildə yazılmışdı) dövrü üçün qorxmadan, çəkinmədən "Azərbaycan mənin

tarixi vətənimdir" müddəasını irəli sürərək vətəndaşlıq mövqeyini, xalqın keçmişini, bu gününü və gələcəyini, əbədi yaşamaq hüququnu bütün varlığı ilə əks etdirir və Azərbaycanın bədii xəritəsini göz önündə canlandırırdı:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən.*
*Anam, doğma vətənimsən,*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!* (4, s.176).

"Azərbaycan" şeiri həm Vurğun yaradıcılığının, həm də müasir Azərbaycan poeziyasının şah əsərinə - manifestinə çevrildi. Şairin vətən haqqında olan ən qiymətli, dərin düşüncələri Azərbaycan adlı "qəhrəman"ın canlandırdığı düşüncələrdə küll halında öz bədii əksini tapmışdır. "Azərbaycançılıq" sevgisindən ilhamlanan, vətənin hər qarışından - elindən-obasından, dağından-düzündən, kəndindən-şəhərindən söz açaraq vətənpərvərlik duyğularını tərənnüm edən görkəmli şairimiz ustalıqla təbii gözəllikləri incə bir lirizmlə vəsf etmişdir. Şeirdə Azərbaycan təbiəti əbədiləşir, rəngarəng rəsm tablosuna çevrilir, göz önündə canlanır: "sıra dağlar", "gen dərələr", "ürək açan mənzərələr", "sakit axan Arazlar", "durna gözlü bulaqlar", "başı qarlı dağlar", "yaşılbaş sonalar", "ala gözlü gündüzlər", "ağ örpəkli buludlar", "göy yaylaqlar", "sarı sünbül"... Şeirin hər bir misrasında Azərbaycanın özü, ruhu var:

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan,*
*Axşamüstü qoy uzaqdan,*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi* (4, s.178).

Misralardan göründüyü kimi, Səməd Vurğun Azərbaycanın dilbər guşəsi qədim Qarabağın füsunkar gözəlliklərini lətif bir patriotizmlə əks etdirdiyi halda, eyni zamanda Qarabağın mədəni mühitini canlandıraraq bu sahədə tarixdə iz qoymuş, görkəmli şəxsiyyətlərini ("Xan Şuşinski" təxəllüslü görkəmli xanəndə İsfəndiyar Cavanşirov) də unutmurdu.

“Azərbaycan” şeiri təbiətlə insanın harmoniyasını, Vətən və xalq məfhumunun bağlılığını əks etdirən misilsiz sənət incilərindən hesab olunur. Bu şeirinə şair özü də yüksək qiymət verərək demişdir: “Mənim “Partizan Babaş” kimi şeirlərim yüzlərcədir. “Azərbaycan” şeiri isə mənim həyatıma, bütün həyat proqramıma uyğundur. Mən nə qədər yaşayıb-yaratsam da, 1933-cü ildə yazdığım bu kiçik şeirə aşıladığım motivləri bütün əsərlərimdə oxuyacaq, duyacaqsınız” (2, s. 102).

Vətənini coşqun bir məhəbbətlə sevən Səməd Vurğun poeziyasına “təbiət insan kamalının, insan əməllərinin təcəssümü olmalı, bəzən qaşlarını loğman kimi çatıb düşüncəli, bəzən də iztirablar, həyəcanlar içində çırpınan bir ürək kimi təlatümlər, fırtınalar keçirməlidir”. Onun bir xüsusi təbiəti duyma qabiliyyəti var idi və bu duyğunu, təbiətin gözəlliyini konkret obrazlarla bədiiləşdirərək canlandırır, oxucuya sevdirir, onları qorumağa səsləyir. “Muğan” poemasında təbiətin gözəl qızı ceyranı rəssam həssaslığı ilə duyaraq təsvir edir, ülvi məhəbbətlə tərənnüm edir, bu gözəlliyin qarşısında heyrətini gizlətmir:

*Yerdən ayağını quş kimi üzüb,*
*Yay kimi dartılıb ox kimi süzüb,*
*Yenə öz sürünü nizamla düzüb,*
*Baş alıb gedirsən hayana, ceyran?*

*Əzəldən meylini saldın çöllərə,*
*Bəxtini tapşırdın bizim ellərə,*
*O qara gözlərin düşdü dillərə,*
*Dişlərin oxşayır mərcana ceyran?(6, s.177).*

Şair misralarında “*uçarda turacdır, qaçarda ceyran*” deyimini xüsusi vurğulayaraq insanları bu təbiət incilərini qorumağa, yaşatmağa çağırır:

*Ovçu insaf eylə, keçmə bu düzdən!*
*O çöllər qızını ayırma bizdən!*
*Qoyma ağrı keçə ürəyimizdən,*
*Qıyma öz qanına boyana ceyran!*
*Nə gözəl yaraşır Muğana ceyran! (6, 178).*

Səməd Vurğun ürək yanğısı ilə “ovçu gülləsindən məhv olan ceyranı” qorumağa çalışsa da, başqa bir şeirində (1943-cü ildə qələmə aldığı “Göyərçin”) daha qlobal məsələlərə toxunur, sülh rəmzi olan simvolik göyərçinin təsvirində qanlı-qadalı müharibə illərinin ağrı-acılarını, insan əli ilə təbiətə dəyən ziyanları, xarabalıqların yaranmasını, canlı aləmin məhv olmasının poetik mənzərəsini canlandırır:

*Danışmayır, susur şəhər...*
*Nələr deyir xərabələr!?*
*Talan olmuş gözəl Vətən,*
*Nə bir dövlət, nə var qalmış.*
*Oda yanmış hər bir evdən*
*Quruca dörd divar qalmış...*
*Qapıdakı bir ağac da*
*Yarpaq töküb qurumuşdur...*
*Qərib qalmış o ağacda*
*Bir göyərçin oturmuşdur... (5, s.105)*

Şair müharibənin dəhşət və fəlakətlərinin ağır nəticəsini “yarpaqlarını töküb qurumuş”, “qərib qalmış ağacda” özünə sığınacaq tapan göyərçinin duruşunda, baxışında axtarır:

*De, boynunu acı ruzgar*
*Yetim kimi niyə burmuş?*
*Qəm süzülür gözlərindən,*
*Söylə dərdin intizarmı?*

*Nə tutmusan qəlbində sən?*
*De, dostundan xəbər varmı?*
*Aç sirrini, de, göyərçin,*
*Nisgillisən söylə neçin?(5, s.105).*

Bu nisgilli sorğuların cavabını göyərçinin “yaman olur hicran dağı” söyləməsində axtarsa da, şairin nikbinliyi, qələbəyə inam hissi oxucunu ruhdan

düşməməyə, ətraf mühiti, cəmiyyəti sevməyə çağırır, ədalətin qalibiyyətinə inandırır:

*Əynindən yas paltarını*
*Soyunacaq qara torpaq.*
*O qurtuluş baharını*
*İnsan oğlu yaşayacaq! (5, s.107).*

"Çinarın şikayəti" şeirində isə şair tarixə şahidlik etmiş, qoca bir çinarın dilindən şikayətlərini səbirlə, aramla qələmə alır, bədii don geyindirir. Çinar deyir ki, hər gəlib gedən kölgəmdə dincəlir, yaş torpağımda bağçalar gül açır, hər yarpağımda quşların adı var, dünyanın sirri kötüyümdə doludur, budaqlarım hava səngəridir... Bu qoca çinarın sakit dilindən kimsə inciməmiş, insanlara yaxşılıq etmiş, biçinçilərin yaylağı olmuş, onların alın tərini silmiş, ağır səfərə çıxan hər kəsin sığınacağı olmuş, başına karvanlar dolanmış, cahangirlər qılınc çalmış, başında yüz boranlı qış oynamış, amma:

*Sanma ki, qüdrətim, gücüm qalmamış,*
*Bax, ayrılmamışam öz kötüyümdən!...*
*Qəhrəman bir elin timsalıyam mən...*
*Bir kəs inciməmiş sakit dilimdən...* (4, s.230)

İnsanların yaşayışı üçün bu qədər dəyərli olan bir çinarın vətən torpağı üzərində əzəmətini, vüqarını təsvir edərək şair onu "kötüyündən ayıranları" tənqid edir, təbiətə zülm edənləri "mühəndisi" isə pisləyir:

*Ancaq mühəndisə bir sualım var:*
*"Ömründə bir şitil, bir budaq belə,*
*Mühəndis əkmişmi barı əlilə*
*Ki, məni – bu boyda çinarı birdən*
*Qoparmaq istəyir durduğu yerdən?!"*

Şair təbiətin nadir neməti sayılan çinarı təbiətdəki rolunu vurğulayaraq həm torpağın, suyun, havanın təmizlik və münbitlik mənbəyi kimi göstərir, həm də ulu tariximizin, keçmişimizin şahidi kimi qoruyaraq gələcək nəsillərin görməsini arzulayır və sonda çinarın haqlı şikayətini poetikləşdirir və ona haqq verir:

*Mən bu şikayəti duyduqca dərin,*
*Dedim ki, haqlısan qocaman çinar!*
*Bizdə təbiətə zülm edənlərin*
*Nə insan duyğusu, nə də haqqı var!* (4, s.231).

Göründüyü kimi, şairin təsvirində qoca çinar yurdun, elin-obanın rəmzidir, onu ana torpaqdan ayırmağa, zülm etməyə insan övladının haqqı yoxdur.

Səməd Vurğun poeziyasına "təbiət sevgisi", "təbiət vurğunluğu", "təbiət həsrəti", yəni doğma Azərbaycana məhəbbət bütün yaradıcılığında yüksələn xətlə inkişaf etmiş, müxtəlif şeir və poemalarında öz əksini tapmışdır. Doğma yerləri xatırlaması, böyük məftunluqla tərənnüm etməsi, zəngin maddi və mənəvi sərvətlərimizi poetik dillə "Durnalar", "Göy-göl", "Çiçək", "Dağlar", "Dilican dərəsi" və başqa şeirlərində təsvir etməklə ənənəvi mövzulara müasirlərindən, hətta əvvəlki klassiklərdən fərqli yanaşmış, müasir məzmunla yanaşı, yeni ictimai-siyasi məna kəsb etməsinə xüsusi diqqət ayırmışdır. Şair doğma yerlərin xatırlatmasını özünə borc bilərək gələcəkdə unudulacağından doğan narahatlıqla nizama düzür, "tüstülənən od-ocaq" ifadəsi ilə vətən sevgisini gələcək nəsillərə ötürür:

*Kür qırağı, Qarayazı, göy çəmən,*
*Qoşa palıd... Tüstülənən od-ocaq...*
*Saç ağardı, unutmadım sizi mən*
*Hansı şair sizi bir də yazacaq! (6, s.186).*

Səməd Vurğun yaradıcılığında ənənəvi, qədim tarixə bağlı, "Dədə Qorqud" dastanından başlayaraq aşıq yaradıcılığında, şifahi xalq ədəbiyyatında ən çox müraciət olunan dağlar mövzusu real təbiətin bir parçası kimi konkretləşdirilir, insanın yaxın dostu, sirdaşı, arxa-dayağı kimi təsvir olunur:

*Binələri çadır-çadır*
*Çox gəzmişəm özüm, dağlar!*
*Qüdrətini sizdən aldı*
*Mənim sazım, sözüm, dağlar!*

*Maral gəzər asta-asta,*
*Enib gələr çeşmə üstə.*
*Gözüm yolda, könlüm səsdə,*
*Deyin, necə dözüm, dağlar?* (5, s. 85).

Aşıq Ələsgər yaradıcılığında dağlara müraciət (*Eldən ayrı aşiq niyə yaşadı, Olsun Ələsgər tək qulların dağlar!*), əsasən, insana dəstək göstərən böyük hami şəklində obrazlaşdırılır. Səməd Vurğun isə bu mövzunun poetik yekununu vuraraq, dözüm, güc-qüvvət, qüdrət, gözəllik hisslərini aşılamaqla, inamla bildirir ki, "öz sazının və sözünün gücünü ana torpaqdan, xalqdan alan nəğməkar ölməzdir", həmişəyaşardır:

*Bir qonağam bu dünyada,*
*Bir gün ömrüm gedər bada.*
*Vurğunu da salar yada*
*Düz ilqarlı bizim dağlar (5, s.85).*

Səməd Vurğun təbiət aşiqi idi. Torpaq üstündə olan bütün gözəlliklərə insan gözü il baxaraq zövq alır, həm də bunların yaranmasında insanın rolunu, əməyini, zəhmətini görərək şairanə təbliğ edir və insanların səadətini məhz bu birlikdə, təbiətlə insanın vəhdətində görürdü. Şairin poeziyasının əsasını insan təşkil edir. "*Qabarlı əl... açıq alın, o sağlam ürək, Saymaq ilə bitən deyil ömrün aləmi*", - deyən şair zəhmətkeş insanlara yüksək qiymət verir, müsbət qəhrəmanlarının timsalında onların əməyə, təbiətə xidmətini işıqlandırırdı. Torpaq üzərində hər gözəl neməti insan əməyinin nəticəsi, məhsulu kimi ifadə edirdi, insan arzusunun çiçəkləndiyini poemalarında poetik təsvir edirdi:

*Düşündü, düşündü bizim qəhrəman,*
*Qurduğu şəhərə baxdı vüqarla.*
*Elə bil nur yağdı baxışlarından,*
*Sabahı düşündü o iftixarla...*
*Hər ev qabağında kiçik bir bağ da*
*Yazın oğlan vaxtı gül açdı rəng-rəng,*
*Dünən qamış bitən qara torpaqda*

*Bu gün şəfəq kimi sayrışdı çiçək.*
*Hopduqca səhranın gövdəsinə su*
*Tərlədi qaxsımış bir bədən kimi.*
*Yerdə çiçək açdı yerin arzusu*
*Sevindin, oxucum, sən də mən kimi (5, s.238)*

Göründüyü kimi, Vurğun yaradıcılığında təbiət də insan kimi dil açıb danışır, sevinir, arzusu çiçək açır, canlanır, bəzən də kədərlənir, küsür, inciyir, məhv olur. Bunu dərindən duyan şair təbiətin məna ahəngini canlandırır, xeyirxah və nəcib duyğularını ifadə edir. “Səməd Vurğun qələmində təbiət insan ruhunun tərcümanı kimi verilir. O, bütöv poetik tablo yaradanda təbiətə sətirlərarası münasibətində də bu məqsədə nail olur” (1, 85).

Beləliklə, Səməd Vurğunun Azərbaycan təbiətinin gözəlliyinə həsr etdiyi əsərləri ideya-bədii xüsusiyyətlərinə görə kifayət qədər zəngindir, rəngarəngdir. Onun yaradıcılığına nəzər saldıqca görürük ki, Azərbaycan təbiətinə vurğunluğu şeir yazmağa başladığı ilk illərdən ömrünün sonuna qədər ülvi hisslərlə davam etmiş, insanla təbiətin bağlılığından, birgə vəhdətindən ilhamlanmışdır. Əsərlərinin bütöv məzmununu insanla təbiətin harmoniyası təşkil edir və sosial-mənəvi motivi inkişafda, rasional axtarışda, cəmiyyətə xidmətdə, ətraf mühiti qorumaqda, Vətənə, torpağa sevgidə görür və gənc nəsilləri də buna biganə qalmamağa səsləyir.

## ƏDƏBİYYAT


1. Abdullayev C. Səməd Vurğun poetikası. Bakı: Gənclik, 1976.
2. Bayramov A. Səməd Vurğun: ömür yolu və yaradıcılığından səhifələr. Bakı, 2015.
3. Vahabzadə B. Səməd Vurğun. Bakı: Azərnəşr, 1968.
4. Vurğun S. Seçilmiş əsərləri. I cild, Bakı: “Şərq-Qərb”, 2005.
5. Vurğun S. Seçilmiş əsərləri. II cild, Bakı, 2005.
6. Vurğun S. Seçilmiş əsərləri. II cild, Bakı, 1986.
7. Paşayev M.C. Fotosənədlər, əlyazmalar, epistolyar irs. Bakı: Nurlan, 2004.